# "Ölüm hökmü üzünə oxunan adamam"

(əvvəli səh. 11-də)

## Və siyasət...

**- Sizi meydan hərəkatına gətirən konkret hansısa hadisə olubmu?**

- Mən Elçibəylə 1971-ci ildən tanışam. Keçmiş Fioletov küçəsində səsyazma studiyamız vardı. Şair Dilsuz orda işləyirdi. Elçibəy səsimi ilk dəfə orda eşidəndə demişdi ki, Akif türk oğlu türkdür. Sonra tanış olduq, bu tanışlıq dostluğa çevrildi. Elçibəy işarələr elmindən xəbərdar olduğuna görə xalçanı oxuya bilirdi.

Bir dəfə Kələkdə ölümdən söhbət düşdü. Dedi, ölümün məqamı var: bir saat təz ölərsən, şəhid olarsan, bir saat gec ölərsən, murdar. Hələ 70-ci illərdə deyirdi ki, sovetin dağılmağını görəcəyik. Mən də dedim, biz yox, balalarımız görə bilər. Sonralar Qorbaçovu görən kimi bilirsiniz, nə dedi? Dedi, adamımız gəldi. (Gülür).

**- Siyasətdən doğrudanmı ona görə getdiniz ki, özünüzdən sonra gələn gənclərə yol açmaq istəyirdiniz? Yoxsa anladınız ki, siz siyasətçi yoxsa, sənətkarsınız?**

- Mən siyasətə gələndə... Daha doğrusu, guya siyasətə gələndə televizorun qarşısında oturub çay içə-içə münasibət bildirənlərdən deyildim. Hərəkat başlayanda bu Sibirə sürgünlə də qurtara bilərdi. Vaxt keçəndən sonra, xüsusən, Elçibəy rəhmətə gedəndən sonra gördüm ki, tamam başqa əhval-ruhiyyə var, hər kəsən özü haqqında fikirləşir. Mən də düşündüm, bu yolda ola bilmərəm. Manecilik olmasın deyə, çəkildim, qıraqdan tamaşa edirəm. Və fikirləşirəm ki, haqlıyam.

APA